# Lənkəranda daha bir şəhidin adına bulaq açılıb



Lənkəranın Velədi kəndində Vətən müharibəsi şəhidi Elməddin Anar oğlu Məmmədlinin xatirəsinə inşa edilən bulağın açılışı olub.

Şəhər rəhbərliyinin, yerli icra strukturlarının, hüquq-mühafizə orqanlarının nümayəndələrinin, kənd sakinləri və şəhidin doğmalarının iştirak etdikləri tədbirdə Vətən müharibəsində lənkəranlı gənclərin də əzmkarlıqla döyüşdüyü diqqətə çatdırılıb. Həmçinin bildirilib ki, şəhid Elməddin Məmmədlinin bulaq xatirə kompleksinin açılışı onun doğum gününə təsadüf edir.



Şəhidin atası Anar Məmmədov ailəsi adından çıxış edərək övladının xatirəsinin əziz tutulmasına görə rayon rəhbərliyinə və bütün kənd əhalisinə minnətdarlığını ifadə edib, dövlətdən hər zaman qayğıkeşlik və diqqət gördüyünü vurğulayıb.

Məktəblilərin ifasında qəhrəmanlarımıza həsr olunan bədii nümunələrin səslənməsindən sonra kənd qəbiristanlığında dəfn olunmuş şəhidin məzarı ziyarət edilib, önünə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

Qeyd edək ki, Elməddin Məmmədli ölümündən sonra dövlət başçısının sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Ağaddin BABAYEV,***
*"Lənkəran" qəzetinin əməkdaşı*

Azərbaycan.- 2022.- 13 avqust.- S.12.